# Etibarlı tərəfdaş, güvənli lider

## Serbiya Prezidenti A.VUÇİÇ: "İlham Əliyevin sözünə hər hansı imzadan daha çox inanırıq"



**Keçən ilin sonunda Azərbaycandan qaz idxal edən ölkələrin sayı 12-yə çatdı. İndi biz Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya, Rumıniyaya, Macarıstana, Serbiyaya, Sloveniyaya, Xorvatiyaya, Şimali Makedoniyaya və Slovakiyaya qaz ixrac edirik.**

Prezident İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsində bu məsələdən də bəhs edərək demişdir: "Bəli, qaz ixracımız artır və hazırda biz müxtəlif infrastruktur layihələrindən, əsasən "Cənub qaz dəhlizi" və onun artırılmasından istifadə edərək, qaz təchizatının coğrafiyasını genişləndiririk. Son zamanlar Avropada istismara verilmiş yeni interkonnektorlar vasitəsilə müxtəlif bazarlara çıxışımız mümkündür".

Azərbaycan təbii qaz təchizatında da etibarlı tərəfdaş kimi tanınır. Serbiya Prezidenti Aleksandar Vuçiç bu günlərdə hökumətin iclasında bunu bir daha vurğulayıb. Bu, Vuçiçin ölkəmiz, dövlətimizin başçısı haqqında dediyi ilk xoş sözlər deyil. Məsələn, 2022-ci il noyabrın 23-də Belqradda, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən və ikitərəfli sənədlərin imzalanmasından sonra mətbuata bəyanatında Aleksandar Vuçiç bəyan etmişdir: "Mən Prezident Əliyevə dedim ki, bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsa da, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu, belə də olacaq. Bu, bizim üçün, həqiqətən də, vacibdir". Serbiya Prezidenti ölkələrimiz arasında bir çox oxşarlığın olduğunu və bu xüsusda Prezident Əliyevdən bir çox məsələni öyrəndiklərini vurğulamışdır.

Həmin il dekabrın 21-də Azərbaycana səfəri zamanı isə Serbiya Prezidenti dost münasibətini bir daha dilə gətirmişdir: "Mən bu səfərdən, həqiqətən də, çox məmnunam. Bu görüşdən gözləntilərim çoxdur. Həqiqətən də, çox xoşbəxtəm ki, Prezident Əliyevdən bu qədər şey öyrənə bilmişəm. Bildiyiniz kimi, mən nə yerli, nə də beynəlxalq ictimaiyyət qarşısında bu cür sözləri deməkdən çəkinmirəm. Dünyada bir çoxları bilir ki, mən kimisə həddindən artıq tərifləməyi xoşlayan biri deyiləm. Mən bizim ikimizdən daha böyük və güclü olduğunu düşünənləri belə tərifləmirəm".

Dostluq və tərəfdaşlıq uğurla davam edir. 2023-cü il dekabrın 10-da Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun istifadəyə verilməsi ilə tərəfdaşlıq münasibətləri daha da möhkəmləndi. Bu interkonnektor "Cənub qaz dəhlizi"nə inteqrasiya olunub.

Xatırladaq ki, 2022-ci il oktyabrın 1-də Azərbaycan təbii qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) istifadəyə verildi. IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. Bu interkonnektorun açılışı Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyətli hadisə idi. Başqa sözlə, IGB qarşıdakı illərdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində yeni layihələrin müjdəçisidir.

Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru isə ixrac infrastrukturunun zənginləşməsi üçün atılan növbəti uğurlu addım oldu. Həmin vaxt Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Niş şəhərində Azərbaycanın media nümayəndələrinə müsahibəsində söylədi ki, bu, onlar üçün çox vacib bir layihədir. O, həmçinin qeyd etdi: "Bu həm də Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Bizim gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanımız da olacaq ki, bu da Serbiyanın ümumi enerji təhlükəsizliyində mühüm rol oynayacaq".

Aleksandar Vuçiç hökumətin bu yaxınlarda keçirilən iclasında da Azərbaycanın onlar üçün etibarlı tərəfdaş olduğunu bir daha vurğulayaraq onu da bildirmişdir ki, hazırda ölkəsində qaz istehlakı gündəlik 13,5-14,5 milyon kubmetr civarındadır. Bu günə həm Serbiyadakı, həm də Macarıstandakı yeraltı anbarlarda təxminən 430 milyon kubmetr qaz ehtiyatı var.

Deyilənlərə onu da əlavə edək ki, Serbiya Azərbaycandan qaz alan sayca 8-ci ölkə olub. Hazırda ölkəmizdən gündəlik 2,5 milyon kubmetrədək təbii qaz idxal edilir.

***Flora SADIQLI, "Azərbaycan"***